
*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 48 (23.690)

*12 mart 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib.

Prezident İlham Əliyev deyib ki, son 30 ildə çox güclü tərəfdaşlıq əlaqələri qurulub. Bank ölkənin transformasiyasında, iqtisadiyyatımızın şaxələndirilməsində ölkəmizi dəstəkləyib. Bizim 3 milyard avrodan çox məbləğdə layihələrimizin maliyyələşdirilməsi faktı bunu açıq-aşkar nümayiş etdirir. Hazırda bu portfelin yarısının özəl sektora yönəlmiş vəsait olması da mühüm əhəmiyyət kəsb edir. Bu da əməkdaşlığımızın yaxşı göstəricisidir. Ölkəmizin başçısı dövlət şirkətləri tərəfindən həyata keçirilən infrastruktur layihələrin tamamlandığını, hazırda əsas məqsədin işğaldan azad edilmiş, 30 il ərzində ermənilər tərəfindən tamamilə dağıdılmış ərazilərin bərpası olduğunu, bu məsələlərdə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənildiyini vurğulayıb. Qeyd olunub ki, işğaldan azad olunmuş torpaqlar "yaşıl enerji" zonası elan edilib.

Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Basso Azərbaycan hökuməti ilə külək və günəş enerjisi sahələrində əməkdaşlığın əhəmiyyətindən danışıb.

Söhbət zamanı Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, bu əməkdaşlığın daha da dərinləşdiriləcəyinə əminlik bildirilib.

# Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilib

Martın 11-də Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının binasında yaradılan şəraitlə tanış olmuşdur.






Naxçıvan Muxtar Respublikası "Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsin direktoru Hikmət Əhmədov məlumat verərək demişdir ki, muxtar respublikanın davamlı inkişafı teleradio yayımı sahəsini də əhatə edib, rəqəmsal televiziya şəbəkələrinin tətbiqi ilə əlaqədar mühüm layihələr həyata keçirilib. Nəticədə, muxtar respublikada telekommunikasiya sahəsi müasir tələblər səviyyəsində qurulub. Bu gün Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni müasir bina ilə təmin olunması da görülən işlərin davamıdır. Hikmət Əhmədov muxtar respublikada telekommunikasiyanın inkişafına göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni stansiyanın istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün Sədərək rayonunu əhatə edən radio-televiziya ötürücü stansiyası istifadəyə verilir. Bununla da rayon ərazisində teleradio yayımının keyfiyyəti yaxşılaşacaqdır. Teleradio yayımı əhəmiyyətli məsələdir. Ona görə də muxtar respublikada televiziya kanallarının paket formasında yayımı həyata keçirilir. Çünki teleradio yayımının düzgün tənzimlənməsi həm də milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət edir. Hazırda bir çox ölkə beynəlxalq qanunlara əhəmiyyət vermədən televiziya verilişlərini öz sərhədlərindən kənara da yayımlayır. Bu da ölkədaxili televiziyaların yayımına, eyni zamanda milli-mənəvi dəyərlərin aşılanmasına təsir edir. Əhalini bu təsirlərdən qorumaq üçün muxtar respublikada müasir ötürücü stansiyalar qurularaq teleradio yayımı həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada ötən illərdə bu sahədə xeyli işlər görülmüş, 2014-cü ildən rəqəmsal yayıma keçilmiş, verici stansiyalar yenidən qurulmuş,



müasir avadanlıqlarla təmin olunmuşdur. Sədərəkdə avtomat kökləmə sistemi ilə təchiz edilmiş FM verici avadanlıqları quraşdırılmışdır. Bu avadanlıqlar bütün muxtar respublika ərazisində qurulmalıdır. Naxçıvan dağlıq ərazidə yerləşir. Buna görə də monitorinqlər aparılmalı, hansı ərazidə siqnallar zəifdirsə, paket şəklində təqdim olunan kanallar məhduddursa, həmin ərazilərdə tədbirlər görülməlidir ki, əhali ölkəmizdə yayımlanan televiziya və radio verilişlərinə baxa və dinləyə bilsinlər. Bunun üçün lazımi şərait vardır. Dövlət tərəfindən bu işlərin həyata keçirilməsinə lazımi dəstək göstərilir. Aid təşkilatlar da bu işlərə məsuliyyətlə yanaşmalı, vericilər müasir tələblərə cavab verməli, avtomatik kökləmə sistemləri ilə təmin olunmalı, muxtar respublika ərazisində yayım keyfiyyəti yüksəldilməlidir. Ölkənin təbliğatı və əhalinin məlumatlandırılması media üzərindən aparılır. Eyni zamanda gənc nəslin vətənpərvər və milli dəyərlərə sadiq yetişməsində də televiziya və radiolar mühüm əhəmiyyət kəsb edir. Son 2 ildə Naxçıvan Dövlət Televiziyasına ümumi dəyəri 500 min manata yaxın olan avadanlıqlar alınmışdır. Bütün bunlar keyfiyyətin yüksəldilməsi üçün edilib. Artıq əhali keyfiyyətli verilişlərə baxa bilir.

Ali Məclisin Sədri demişdir: Bu gün Sədərəkdə istifadəyə verilən stansiya müasir avadanlıqlarla təmin olunub. Müasir avadanlıqlar isə yeni mütəxəssislərin yetişməsini və onların işə müasir yanaşmasını təmin edəcəkdir. Yaxşı iş şəraiti burada çalışanlar üçün də rahatlıq deməkdir. Ona görə də qurulub-yaradılanlar qorunmalı, işə məsuliyyətlə yanaşılmalı və ərazidə keyfiyyətli teleradio yayımı həyata keçirilməlidir.

Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının mexaniki Elşən Səfərli kollektiv adından minnətdarlıq edərək demişdir: "Bu gün muxtar respublikanın sərhəd rayonu olan Sədərəkdə belə bir stansiyanın istifadəyə verilməsi kollektivimizlə yanaşı, bütün əhalinin sevincinə səbəb olmuşdur. Biz yeni, rahat iş şəraitinə malik bina ilə təmin olunuruqsa, ötürücü stansiyanın istifadəyə verilməsi ilə sədərəklilərin televiziya verilişlərinə keyfiyyətli şəkildə baxmaları təmin edilir".

Stansiyaya baxış zamanı məlumat verilmişdir ki, muxtar respublikada 6 ötürücü, 44 azgüclü verici stansiya fəaliyyət göstərir. Hazırda muxtar respublikanın bütün ərazisi rəqəmsal yayımla əhatə olunmuşdur. Sədərək Radio-Televiziya Ötürücü Stansiyasında radio-televiziya vericiləri, efirə nəzarət, mühəndis, server, mətbəx və digər iş otaqları vardır. Efirə nəzarət otağında radio proqramlarının monitorinqi üçün radioqəbuledici, 3 monitor, texniki şkaf quraşdırılmış, muxtar respublikada ilk dəfə olaraq stansiyada 12 kanalın bir monitorda izlənməsinə imkan verən proqram təminatlı "Multiview" sistemi istismara verilmişdir.

Stansiyada 2 enerji tənzimləyicisi, generator, rəqəmsal televiziya vericisi, İtaliyanın "Elenos" şirkətinin istehsalı olan avtomatik kökləmə sistemi ilə təchiz edilmiş 3 yeni FM verici, fiber-optik sonlandırma avadanlıqları, Azercell, Naxtel, Azərconnect mobil operatorlarının baza stansiyaları quraşdırılmışdır. 75 metrlik qüllədə isə mobil operatorların baza stansiyalarının, rəqəmsal televiziya və radio vericilərinin anten-fider sistemləri, radiorele linklərinin verici-qəbuledici avadanlıqları qoyulmuşdur.

Ali Məclisin Sədri muxtar respublikada televiziya və radio yayımlarının keyfiyyətinin artırılması sahəsində işlərin davam etdirilməsi və yeniliklərin tətbiqi barədə tapşırıqlar vermişdir.

*Ardı 2-ci səhifədə*

# Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün müasir kompleks qurulur



Naxçıvan Muxtar Respublikasında gömrük infrastrukturunun yenilənməsi və maddi-texniki bazanın müasir tələblər səviyyəsində qurulması diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün müasir kompleks tikilir.

Martın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kompleksdə görülən işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişlər.

Məlumat verilmişdir ki, ümumi sahəsi 104 min kvadratmetr olan kompleksdə inzibati bina, sürətli keçid üçün VİP və CİP xidmətləri binası, yüklərin rəsmiləşdirilməsi binası, kinoloji xidmət, yoxlama-baxış sistemləri bölməsi, yeməkxana və yardımçı tikililər yerləşir ki, bu da kompleksdə sərhəd və gömrük xidmətinin yüksək səviyyədə təşkilinə imkan verəcək. Rahat və sürətli keçidin təmin olunması üçün giriş və çıxış istiqamətlərinin hər birində istiqamətverici monitorlar olan 6 hərəkət zolağı yaradılmışdır. 3 zolağın avtobus və minik nəqliyyat vasitələrinin, 1-i tranzit olmaqla, 2 zolağın yük nəqliyyat vasitələrinin hərəkəti, 1 zolağın isə sürətli keçid üçün istifadəsi nəzərdə tutulur. Hərəkət zolaqları üzrə sərhədkeçmə vaxtının ölçülməsi sistemi, eləcə də nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarının oxunması üçün 36 kamera quraşdırılıb. Yük nəqliyyat vasitələrinin çəkilməsi üçün müvafiq hərəkət zolaqlarının üzərində 60 tonluq 2 tərəzi, həmçinin bütün hərəkət zolaqlarının üzərində radiasiya səviyyəsinin müəyyənləşdirilməsi üçün qurğular qoyulub.




Kompleksdə gömrük nəzarəti və rəsmiləşməsi "bir pəncərə" prinsipinə uyğun həyata keçiriləcək, "Yaşıl kanal" və "Qırmızı kanal" buraxılış sistemləri tətbiq olunacaqdır. "Qırmızı kanal"a daxil olan minik nəqliyyat vasitələrinin yoxlanılması üçün 3 zolaqda maşınaltıbaxış sistemi qurulub. Sərnişin keçid zalında giriş və çıxış istiqamətlərinin hər birində "Qırmızı kanal"la bəyan edilməli olan yüklərin gömrük nəzarətindən keçirilməsi üçün 2 müasir rentgen-baxış qurğusu, həmçinin şəxslərin üzərinin təkrar yoxlanılması üçün "body-scan" qurğusu vardır. "Yaşıl kanal" buraxılış sistemindən gömrük sərhədindən keçirilən əl yükündə və müşayiət olunan baqajında yazılı formada bəyan edilməli mallar olmayan sərnişinlər istifadə edəcəkdir. Giriş və çıxış istiqamətlərində pasport nəzarəti 2-si Azərbaycan, 2-si xarici ölkə vətəndaşları üçün olmaqla, 4 məntəqədə həyata keçiriləcəkdir. Sərnişin keçid zalında rüsumsuz ticarət mağazası və kafe fəaliyyət göstərəcəkdir. Bütün rəsmiləşmə və keçid zallarında quraşdırılmış elektron bəyanetmə köşklərində gömrük qanunvericiliyi ilə bağlı məlumat almaq və Dövlət Gömrük Komitəsinin 234 nömrəli informasiya-sorğu xidməti ilə birbaşa əlaqə yaratmaq imkanı vardır.



Anbarlarda yüklərin yoxlanılması üçün 3 rentgen-nəzarət qurğusu, yoxlama-baxış sistemləri bölməsində giriş istiqaməti üzrə yük və minik nəqliyyat vasitələrinə gömrük nəzarətini həyata keçirmək üçün 2 X-Ray tipli rentgen-nəzarət qurğusu quraşdırılmışdır. Kompleksdəki bütün rentgen-nəzarət və baxış qurğuları Almaniyanın "Smiths Dedection" şirkətinin istehsalıdır. Gömrük nəzarəti zonasında yoluxucu xəstəliklərə qarşı mübarizə məqsədilə ölkəyə giriş istiqamətində avtonəqliyyat vasitələri üçün müasir dezinfeksiya baryeri, sərnişin zallarında hərarəti məsafədən ölçən termovizorlar quraşdırılmış, tibb məntəqəsi yaradılmışdır. Kompleksin ərazisində yüksək görüntü keyfiyyətinə malik olan 90 kameralıq videonəzarət sistemi qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri kompleksdə işlərin aprel ayına qədər başa çatdırılması və xidmətin müasir tələblər səviyyəsində təşkili ilə bağlı tapşırıqlar vermişdir.

# Sədərək rayonunda Bayraq Meydanı yaradılıb





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində dövlət bayrağı dalğalanır..."*** Ulu öndərin ideyalarına sadiqlik nümayiş etdirən ölkə başçısı dövlət rəmzlərini və atributlarını daim uca tutur, ölkəmizin hər yerində bayraq meydanları yaradılır, əzəli Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalandırılır.

Martın 11-də Sədərək rayonunda Bayraq Meydanı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş, yaradılan şəraitlə tanış olmuşdur.

"Sədərək rayonundakı Bayraq Meydanında üçrəngli bayrağımız İkinci Qarabağ müharibəsində qazanılan qələbə və şəhidlərin xatirəsinə qaldırılır", – deyən Ali Məclisin Sədri qurğunu işə salmış, üçrəngli dövlət bayrağımız əbədi yüksəkliyə ucalmışdır.

Məlumat verilmişdir ki, Sədərək rayonunda Bayraq Meydanının tikintisinə 2020-ci ilin aprel ayında başlanılmışdır. Bayraq dirəyinin hündürlüyü 33,5, bayrağın eni 8, uzunluğu isə 16 metrdir. Bayraq dirəyinin oturacağı siyanit plitələrlə üzlənmişdir. Sahəsi 6 min 312 kvadratmetr olan meydanda geniş abadlıq işləri aparılmış, müasir işıqlandırma sistemi qurulmuş, dekorativ ağac və gül kolları əkilmişdir.

Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri Arif Qasımov minnətdarlıq edərək demişdir: "Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik ideyaları bu gün Naxçıvanda uğurla həyata keçirilir. Dövlətimizin qayğısı nəticəsində 30 il əvvəl müharibə şəraitində yaşayan Sədərək rayonu artıq müasirliyə qovuşub, burada insanların rahatlığı və sabitliyi üçün hərtərəfli şərait yaradılıb. Müstəqilliyimizin rəmzi olan Bayraq Meydanı isə burada böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyətə malikdir. Çox qürurvericidir ki, bu gün burada dalğalanan bayrağımız ötən il işğaldan azad olunmuş rayonlarımızda da dalğalanır".

Ali Məclisin Sədri demişdir ki, Sədərək rayon kimi formalaşır, əhalinin yaşayışı yaxşılaşır, imkanlar artır. Dəmirçi kəndinin rayona birləşdirilməsi kadr və investisiya potensialını yaxşılaşdıracaq, rayonun gəlirlərini artıracaqdır. Bütün bunlar Sədərək rayonunun inkişafına xidmət edir. Burada qəsəbənin qurulması, su-kanalizasiya sistemlərinin çəkilməsi, əhalinin içməli su ilə təminatı, infrastrukturun yenilənməsi, əkinəyararlı olmayan torpaqların əkin dövriyyəsinə qatılaraq istifadəyə verilməsi muxtar respublika üçün əhəmiyyətli olan bu rayonun inkişafına səbəb olmuşdur.

Ali Məclisin Sədri Bayraq Meydanında abadlığa və təmizliyə nəzarət olunması, yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Dövlət proqramı icra olunur*

# Uşaqların sağlamlığının qorunması diqqət mərkəzindədir



*Sağlam cəmiyyətin mövcudluğunun başlıca şərti hər bir fərdin fiziki, əqli və sosial cəhətdən inkişafının təmin edilməsidir. Elə buna görə də ölkəmizdə gələcəyimiz olan uşaqların sağlam və firavan böyüməsi, onların rifahının yüksəldilməsi, təhsil və tərbiyəsi dövlət siyasətinin başlıca vəzifələrindən biri kimi müəyyən edilib. Dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi:* ***“Gələcək nəsil, ilk növbədə, vətənpərvər olmalıdır, sağlam olmalı, milli ruhda tərbiyə almalıdır, öz doğma Vətəninə bağlı olmalıdır, bizim qədim ənənələrə sadiq olmalıdır və bilikli, savadlı olmalıdır. Belə olan halda ölkəmizin gələcəyi də parlaq olacaqdır”.***

Ötən dövrdə Naxçıvan Muxtar Respublikasında uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi, yeni texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm addımlar atılmışdır. Görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Proqramda tibbi müayinələr vasitəsilə uşaqlarda xəstəliklərin və onların risk amillərinin erkən mərhələdə aşkar edilməsi, dispanserizasiya tədbirləri çərçivəsində aparılan profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərin qeydiyyat sisteminin təkmilləşdirilməsi, uşaqların dispanserizasiyasını həyata keçirən, xüsusilə də ilkin səhiyyə xidmətində çalışan tibb işçilərinin bilik və bacarıq səviyyəsinin yüksəldilməsi kimi bir sıra vəzifələr müəyyən olunmuşdur. Bu istiqamətdə tədbirlər 2020-ci ildə də davam etdirilmiş, 45 min 974 uşaqda tibbi müayinələr aparılmış, onlardan 9 min 252-si dispanser nəzarətə götürülmüş, 2 min 574 uşağın valideyninə elektron kart paylanmış, ixtisaslaşmış tibb müəssisələrində 307 uşağın müalicəsi təşkil olunmuşdur.

Naxçıvanda həyata keçirilən kompleks tədbirlər içərisində səhiyyə quruculuğu özünəməxsus əhəmiyyətə malikdir. Müvafiq Dövlət proqramlarının icrası nəticəsində muxtar respublikamızın ən ucqar kəndlərində günün tələbləri səviyyəsində fəaliyyət göstərən tibb məntəqələrinin yaradılması bu sahəyə olan diqqət və qayğının bariz nümunəsidir. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə görülən işlər uşaqlar arasında tibbi-profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərin aparılmasında müasir texnoloji imkanların əhatə dairəsini genişləndirir. 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən Şərur rayonunun Məmmədsabir, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Camaldın kəndlərindəki həkim ambulatoriyaları, Şərur rayonunun Muğancıq-Mehrab, Qarabürc, Babək rayonunun Nəcəfalidizə kəndlərindəki feldşer-mama məntəqələri lazımi tibbi avadanlıqlarla təchiz olunmuş və müasir iş şəraiti yaradılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 7 yanvar tarixli Sərəncamı ilə Ordubad Rayon Uşaq Xəstəxanasının yaradılması Naxçıvanda dövlət uşaq siyasətinin uğurla həyata keçirilməsindən xəbər verir.





Səhiyyə müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, tibbi kadr hazırlığının təşkili də xüsusi önəmə malik məsələlərdəndir. Dövlət proqramında uşaqlar arasında xəstəliklərin profilaktikası və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində nəzərdə tutulan tapşırığın icrası bu sahədə ixtisaslaşmış kadr potensialının formalaşmasına mühüm təkan verir. 2020-ci ildə xəstəliklərin müalicəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə təcrübə kursu keçmək üçün 7 həkim müxtəlif xarici ölkələrə, 20 həkim Bakı şəhərinə göndərilmişdir.

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər onların cəmiyyətə daha sağlam inteqrasiya olunması baxımından xüsusi önəm kəsb edir. Bu sosial kateqoriyadan olan uşaqların ehtiyaclarının təminatı, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqət mərkəzində saxlanılır. Eyni zamanda Naxçıvanda sağlamlıq imkanları məhdud uşaqların bərpa müalicəsinin təşkili, onların müxtəlif köməkçi vasitələrlə təmin edilməsi ilə bağlı tədbirlər də mütəmadi olaraq davam etdirilir. Dövlət proqramının icrasına uyğun olaraq 2020-ci ildə sağlamlıq imkanı məhdud 45 uşağa bərpa müalicəsinin təşkili üçün göndəriş verilmiş, 32 uşaq texniki reabilitasiya və köməkçi vasitələrlə təmin olunmuşdur. Eyni zamanda bu kateqoriyadan olan 76 uşağa protez-ortopedik xidmətin göstərilməsi onların hərtərəfli qayğı ilə əhatə olunmasının mühüm təzahürüdür.

Uşaqlarda aparılan müayinələrin əhəmiyyəti xəstəliklərin erkən müəyyən olunması və vaxtında müalicə tədbirlərinin həyata keçirilməsidir. Bu müayinələr uşaq xəstəlikləri ilə bağlı müalicənin effektiv nəticə verməsinə və xəstəliklərin zərərverici təsirinin minimuma endirilməsinə şərait yaradır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası 2020-ci ildə də diqqətdə saxlanılmış, 1736 uşaqda qurd invaziyasına görə, 12 min 69 uşaqda psixonevroloji müayinələr aparılmışdır. Bu xəstəliklərin simptomları aşkar edilən uşaqlar müvafiq dərman preparatları ilə təmin olunmuş, onların ixtisaslı müayinəyə yönləndirilməsi ilə bağlı maarifləndirmə işi həyata keçirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, uşaqlar və onların valideynləri arasında tibbi maarifləndirmə işinin təşkili mütərəqqi əhəmiyyət daşıyan önəmli məsələlərdəndir. Çünki mütəxəssis məsləhəti olmadan həyata keçirilən müalicə tədbirlərindən müsbət nəticə əldə etmək ehtimalı olduqca azdır. Proqramın icrası məqsədilə həyata keçirilən maarifləndirmə tədbirləri və bu tədbirlərdə təqdim olunan əyani vəsaitlər uşaqların sağlamlığının qorunması ilə bağlı ilkin istiqamətləndirici funksiya rolunda çıxış edir. Bu məqsədlə Kəngərli rayonunda 230 şagird arasında maarifləndirmə işi həyata keçirilmiş, “Şəxsi gigiyena qaydalarının təlimata uyğun aparılmasına dair məlumat” başlıqlı metodik vəsait hazırlanaraq Şərur rayonunda 78 şagird və 30 valideyn arasında paylanmışdır.

Dövlət proqramının icrası istiqamətində görülən işlər onu deməyə əsas verir ki, Naxçıvanda uşaqların sağlamlığının qorunması prioritet istiqamətlərdən biridir. Çünki sağlam uşaqlar gələcək sağlam cəmiyyətin təməlini təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“O uşaq hərtərəfli inkişaf edir ki, o, sağlam olsun. Ona görə də uşaqların sağlamlığının qorunmasına diqqət artırılır. Muxtar respublikada yaradılan müasir səhiyyə infrastrukturu, mütəmadi olaraq aparılan profilaktika və müayinə tədbirləri gələcəyimiz olan gənc nəslə qayğının ifadəsidir...”.***

**“Şərq qapısı”**

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini fevral ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

# Dövlət siyasətinin əsas vəzifələrindən biri əhalinin sağlamlığıdır



Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ edilən xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasından hemofiliyalı və talassemiyalı xəstələr üçün faktor dərman preparatları gətirilib.

Ağbulaq İstirahət Mərkəzində Ağbulaq həkim ambulatoriyasının tibb işçiləri Fövqəladə Hallar Nazirliyi ilə birgə dağ-xizək travmaları zamanı ilkin tibbi yardıma dair təlim-treninq keçirib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər də davam etdirilib. 1 həkim və 1 rezident Bakı şəhərində, 2 həkim və 3 tibb bacısı Naxçıvan şəhər tibb müəssisələrində, 8 tibb bacısı fizioterapiya üzrə, 10 laborant ixtisası üzrə Tibb Kollecində nəzəri və tibb müəssisələrində praktik təcrübə keçməyə göndərilib. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 11, Tibb Kollecinin isə 121 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Babək rayonunda və kəndlərində yaşayan Qarabağ müharibəsi qazilərindən 6 nəfəri evlərində hərtərəfli tibbi müayinədən keçirib. Ayrı-ayrı rayonlarda şəkərli diabet xəstəliyindən əziyyət çəkən 138 xəstənin göz dibinin müayinəsi aparılıb, lazımi məsləhət və təyinatlar verilib. Xəstəxananın 12 nəfərdən ibarət həkim briqadası Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbində 43 şagirdi ambulator müayinə edib, ehtiyacı olanları USM və laborator müayinələrdən keçirib.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında 11 nəfərdə müayinə, 10 nəfərdə cərrahiyyə əməliyyatı icra olunub. Bakı şəhərindən dəvət olunmuş LOR həkimi Ruslan Qurbanov tərəfindən isə 10 xəstədə cərrahi LOR əməliyyatı aparılıb. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Şahbuz rayonunun Badamlı qəsəbə, Badamlı və Şada kəndlərində təhsil işçilərindən 35, kənd sakinlərindən isə 22 qadında süd vəzinin profilaktik müayinəsi həyata keçirilib, 6 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib.

Hesabat ayında tibb işçilərinin COVID-19 virusuna qarşı vaksinasiyanın ilk mərhələsi başa çatıb, bütövlükdə, 3 min 480 tibb işçisi vaksinasiya edilib. Həmçinin mövsümi qripə qarşı risk qruplarından olan vətəndaşlardan 11 min 585 nəfərə qrip əleyhinə vaksinasiya aparılıb ki, bunun da 1800-nü uşaqlar təşkil edir.

Qanla işləyən tibb işçiləri, hemofiliya, dializ xəstələrindən 252-də hepatitə qarşı I və II tur vaksinasiya aparılıb, pandemiya ilə mübarizə tədbirləri çərçivəsində məktəblərdə hər gün termometriya və dezinfeksiya işləri, məktəbəqədər müəssisələrdə, məktəblərdə, ictimai iaşə, su təchizatı qurğuları və digər obyektlərdə sanitar-gigiyenik vəziyyətə nəzarət yoxlamaları davam etdirilib.

Ərzaq istifadə edən müəssisələrdə sanitar vəziyyətə nəzarət məqsədilə yoxlamalar aparılıb. 44 istehsalat obyektində monitorinq keçirilib, 7 obyektə sanitar pozğunluq barədə şifahi xəbərdarlıq edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# İxtisasartırma kursu keçilir



***Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin əməkdaşları üçün ixtisasartırma kursu keçilir.***

Bununla bağlı təşkil olunan tədbirdə institutun rektoru Azad Novruzov çıxış edərək bildirib ki, Naxçıvan Müəllimlər İnstitutunda müəllimlərin ilkin hazırlığı, ixtisasartırma və təkmilləşdirilməsi proseslәri bir-biri ilə əlaqəli, kompleks şəkildə həyata keçirilir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi əməkdaşları üçün nəzərdə tutulan 4 günlük ixtisasartırma kursunda müdavimlər müxtəlif mövzular əsasında biliklərini təkmilləşdirəcəklər.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovniki Kamil Məmmədəliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılan Orta İxtisas Polis Məktəbində ixtisaslı kadrların hazırlanması işini həyata keçirənlərin yeni texnologiyalar və müasir elmi biliklərlə təkmilləşməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Müəllimlər İnstitutunda keçirilən ixtisasartırma təlimi bu mənada xüsusi əhəmiyyət kəsb edir.

Sonra proqrama uyğun olaraq ixtisasartırma təlimlərinə start verilmiş və ilk dərs institutun Pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyevin təqdimatında olmuşdur.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

# Seminar olub



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Dövlət Vergi Xidmətinin birgə təşkilatçılığı ilə “Bələdiyyələrə ödənilən vergilərlə bağlı qanunvericiliyin tələbləri və məsuliyyət” mövzusunda Kəngərli rayon Yurdçu Kənd Mərkəzində seminar keçirilib.

Seminarı Kəngərli Rayon İcra Hakimiyyəti aparatının əməkdaşı Ağa Seyidov açıb.

Ədliyyə Nazirliyinin əməkdaşları – I dərəcəli ədliyyə qulluqçusu Xəyal Eyvazov və ədliyyə müşaviri Ayaz Məhərrəmov, Dövlət Vergi Xidmətinin baş dövlət vergi müfəttişi Fərid Əliyev çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, bələdiyyələr yerli əhəmiyyətli məsələlərin həllində yaxından iştirak etməklə vergi qanunvericiliyi ilə müəyyən edilən vəzifələri də yerinə yetirməlidirlər. Yerli vergi və ödənişlərin ödəyiciləri vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət daşıyırlar.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, onlara Ədliyyə Nazirliyi tərəfindən hazırlanan metodik vəsait təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Artıq bir neçə ildir ki, yaz fəslinin gəlişi ərəfəsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun tədbirlər planına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə Heydər Əliyev Sarayında məhdud fiziki imkanlı şəxslərin, istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış keçirilir.*

# İncə qadın zövqünün, kövrək duyğulu, həssas insanların təxəyyülünün məhsulu ilə bəzədilmiş ecazkar sənət dünyasında

Bu günlərdə "Şərq qapısı" qəzeti redaksiyasının kollektivi kimi sərgi ilə tanış olmağa gedərkən baş redaktorun həm də reportaj hazırlamaq tapşırığı məndə sərgiyə ikiqat maraq oyatdı. Doğrudan da, sanki incə qadın zövqünün, kövrək duyğulu, həssas insan təxəyyülünün məhsulu ilə bəzədilmiş ecazkar bir sənət dünyasında özümü hiss etdim. Sərgi-satışa kütləvi şəkildə böyük maraq göstərildiyini,



sənətkarlığ nümunələri kolleksionerlərinin həm də buradan müxtəlif əl işləri aldıqlarını müşahidə etdim. Öyrəndim ki, sərgi-satışa Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 424 qadının 6488 əl işi, 6 sağlamlıq imkanı məhdud kişinin 25 əl işi, ümumilikdə, 430 şəxsin 6508 sayda əl işi cəlb olunub. Toplanılan əl işləri arasında 2395 muncuqla iş, 1547 dekorativ iş, 1727 toxuma, 379 tikmə, 134 dekorativ tablo, 48 tikmə tablo, 6 vitraj, 142 yağlı boya, 35 sulu boya, 20 toxuma tablo, 44 xalça, 3 ağac üzərində yandırma, 13 taxta üzərində oyma, 9 mis üzərində döymə, 2 ebru, 3 hiperrealizm və 1 miniatür vardır. Görünən odur ki, bu il də sərgi-satışa maraq böyükdür. Demək olar ki, bütün dövlət orqanlarının, yerli idarələrin, qeyri-hökumət təşkilatlarının kollektivləri, sadə vətəndaşlar, gənclər, tələbələr kütləvi şəkildə buraya gəlirlər. Sərgi iştirakçılarından bir neçəsinin təəssüratlarını öyrəndim.

Naxçıvan Şəhər İcra Hakimiyyəti Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Rübabə Həsənova dedi ki, 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində Heydər Əliyev Sarayında məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət növbəti sərgi-satışın təşkil olunması muxtar respublikamızda qadına və qadın əməyinə verilən ən böyük dəyərdir. Sərgi-satışın iştirakçısı olaraq onu deyə bilərəm ki, buradakı hər bir nümunə göz nuru və əl əməyidir. Bu əl işləri evimizi bəzəməklə yanaşı, həm də onu ərsəyə gətirən insanların maddi vəziyyətlərinin yaxşılaşması baxımından da əhəmiyyətlidir. Göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Digər həmsöhbətim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Zaur Hüseynov muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərə göstərilən dövlət qayğısından danışdı. Bildirdi ki, diyarımızda qadınların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün hər cür şərait yaradılıb. Xalçaçı, dərzi, ağac üzərində oyma kimi peşə kursları təşkil olunub və bu kurslara sağlamlıq imkanları məhdud qadınlar da cəlb edilib. Bu qəbildən olan istedadlı insanların cəmiyyətə tanıdılması, onların əl işlərinin nümayişi və satışının təşkili baxımından belə tədbirlərin keçirilməsi mühüm rol oynayır.

Sərgidə nümayiş olunan, Azərbaycanın zəfər simvolu sayılan xarıbülbülün, Şuşa qalasının və Xudafərin körpüsünün maketləri buraya üz tutanların diqqətini çəkirdi. Bu əsərlərə baxdıqca şanlı Qələbəmizin ətrini duymamaq, bir daha qürurlanmamaq mümkün deyildi. Billurə Quliyeva, Qızxanım Hüseynova, Sevinc Məmmədova, Kifayət Nəcəfova və başqalarının nümayiş etdirdikləri əl işləri zərif qadın əməyinin nümunəsi olmaqla, həm də muxtar respublikamızda milli dəyərlərimizin, adət-ənənələrimizin yaşadılmasından xəbər verirdi. Sərgiyə diyarımıza məxsus xüsusi ornamentlərlə işlədiyi xalçaları çıxaran Billur Şahgəldiyeva evdar qadındır. O bu sənəti Naxçıvan Qızlar Liseyində təhsil aldığı vaxtlardan öyrənib və artıq 3 ildir ki, bu sərgi-satışda iştirak edir. O dedi ki, əl işlərimə xüsusi maraq olduğundan çalışacağam ki, gələcəkdə daha gözəl xalçalar hazırlayım və belə tədbirlərdə yaxından iştirak edim.





Sərgidə Təhminə Allahverdiyeva, Zivər Babayeva, Akifə Məhərrəmova, Röya Fərəcovanın nümayiş olunan əl işlərinə baxdıqlarını gördüm. Bu sənət əsərlərinə marağ göstərənlər milli sənətkarlıq nümunələrini almaq üçün belə bir şəraitin yaradılmasından razılıq etdilər.

Burada olduğum müddətdə bir nəfərin sənətkarlıq nümunələrini xüsusi maraqla seyr etdiyini görüb ona yaxınlaşdım. Türkiyə vətəndaşı Məhmət Memitanlı ilə söhbətimiz zamanı dedi ki, burada olan sənət əsərlərinin hər biri özünəməxsusluğu ilə seçilir və insanı valeh edir, incə zövqlə işlənən rəsm əsərləri bir-birindən maraqlı və rəngarəngdir. Sərgilənən əl işləri içərisində isə Azərbaycanın milli adət-ənənələrini özündə cəmləşdirən nümunələrə marağım daha çox oldu. Ümumi təəssüratım belədir ki, Naxçıvanda tarixi keçmişə, milli dəyərlərə, ənənələrə böyük qayğı göstərilir və bu mənəvi irs yaşadılaraq gənc nəslə ötürülür.

Sərgiyə dekorativ-tətbiqi sənət növü olan ağac üzərində yandırma, gəmi maketi və digər nümunələr çıxaran Tofiq Əliyev sağlamlıq imkanları məhdud şəxsdir. Onunla söhbət zamanı dedi ki, uşaq yaşlarından bu sənətə marağı yaranıb. Naxçıvan şəhərində fəaliyyət göstərən Texniki Yaradıcılıq Mərkəzində təşkil olunan dərnəklərdə iştirak edib, bu sahə üzrə bilik və bacarıqlarını təkmilləşdirib. Onun dediklərindən: – Belə sərgi-satışlar bizim kimi sağlamlıq imkanları məhdud şəxslərin yaradıcılıq fəaliyyətinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bu, muxtar respublikamızda insan amilinə verilən dəyərin bir nümunəsi, məhdud fiziki imkanlıların özlərini cəmiyyətə yararlı hiss etmələri, onların mənəvi və maddi təminatları baxımından böyük dəstək, bizlərdə həyatsevərlik, nikbin ovqat yaranmasına stimul verən amildir.

Sərgidə Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzinin müəllim və tələbə heyətinin birgə sənət əsərlərinin də nümayişi təşkil edilmişdir. Magistratura mərkəzinin Sənətşünaslıq ixtisası üzrə 2-ci kurs tələbəsi Türkan Quliyeva deyir ki, sərgiyə rəsm əsəri və gipsdən hazırlanan tablo ilə qatılıb. Bu işə marağı məktəb vaxtlarından yaranıb və ilk əl işi Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi tərəfindən təşkil olunan müsabiqədə yer tutub. Sərgi-satışa çıxardığı əl işlərinə də insanların böyük maraq göstərməsi onu ruhlandırır və gələcəkdə bu sahə üzrə daha gözəl, nümunəvi sənət əsərləri yaratmağa sövq edir.

Qəzeti çapa hazırlayarkən öyrəndik ki, son 7 gündə sərgi-satışı 2 mindən çox izləyici ziyarət edib, 235 müəllifin 19 min 250 manat dəyərində 1850 ədəd əl işi satılıb. Bütün bunlar onu deməyə əsas verir ki, muxtar respublikamızda hər il ənənəvi olaraq keçirilən sərgi-satışlar həm fiziki imkanları məhdud şəxslərin, həm də qadınların məşğulluğunu təmin etməklə yanaşı, qədim diyarımızın milli adət-ənənələrinin, dəyərlərinin qorunması, təbliği və qədim sənətkarlıq nümunələrinin yaşadılmasına da geniş imkanlar açır.

✍ **Aytac CƏFƏRLİ**

## Görülən işlər gənclərin inkişafına şərait yaradır

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən fevral ayında da gənclərlə iş diqqətdə saxlanılmış, onların inkişafı üçün bir sıra tədbirlər həyata keçirilmişdir.*



Ötən ay 2 fevral – Gənclər Günü münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər mükafatlandırılmışlar. Gənclərin vətənpərvərlik ruhunun yüksəldilməsi, Vətən müharibəsi haqqında ətraflı məlumat əldə etməsi, müharibə iştirakçılarını daha yaxından tanıması məqsədilə "Görüş yeri" kafesində Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilmişdir. Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Nizami Gəncəvinin əsərlərinin tanıdılması, istedadlı gənclərin üzə çıxarılması məqsədilə "Nizami dünyası" adlı rəsm müsabiqəsi təşkil olunmuşdur.

İntellektual fəaliyyətə cəlb edilmələri, dünyagörüşlərinin, zehni inkişaflarının stimullaşdırılması məqsədilə Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında, həmçinin xarici dil öyrənməyə marağın artırılması, keçirilən beynəlxalq yarışlarda muxtar respublika gənclərinin iştirakına zəmin yaradılması, eləcə də onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq edilməsi məqsədilə gənclər arasında ingilis dilində "Xəmsə" milli intellektual oyunları keçirilmişdir. Hesabat ayında tariximizdə müstəsna xidmətləri olmuş şəxslərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur" adlı videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

Ötən ay Naxçıvan Futbol Federasiyasının 2020-ci ildə görülmüş işlər və 2021-ci ildə qarşıda duran vəzifələrə dair iclası keçirilmişdir. Muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının məşqçi-müəllim və idmançılarının muzeylərə ekskursiyaları təşkil olunmuşdur. Naxçıvan Şahmat Mərkəzində "Şahmat beyinin gimnastikasıdır!" devizi altında Naxçıvan şəhər ümumtəhsil məktəblərinin komandaları arasında şahmat birinciliyi, Naxçıvan Muxtar Respublika çempionatının seçmə yarışı keçirilmiş, Azərbaycan və Türkiyə şahmatçıları arasında olan onlayn yoldaşlıq görüşündə Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin komandasının iştirakı təmin edilmiş, Azərbaycan, Türkiyə və Pakistan arasında "3 dövlət, tək ürək!" devizi altında Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin komandası ilə onlayn yoldaşlıq görüşü təşkil edilmişdir. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 97-ci ildönümünə həsr olunmuş şahmat üzrə onlayn formada keçirilən Azərbaycan-Türkiyə dostluq turnirində Sədərək və Kəngərli Rayon Uşaq-Gənclər Şahmat məktəblərinin komandalarının iştirakı təmin edilmişdir.

Hesabat ayında Babək rayonunun Nəcəfəlidizə kəndindən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə 4000 metr məsafəyə ekstremal yürüşün təşkil olunması yaddaqalan ən maraqlı tədbirlərdən olmuşdur.

"2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrasına uyğun olaraq Uzunoba gölünün ətrafında Təlim-Məşq İdman Kompleksinin tikintisi davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Dezinfeksiya tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və Gigiyena və Epidemiologiya Mərkəzinin təşkilatçılığı ilə yoluxucu xəstəliklərə qarşı qabaqlayıcı profilaktik tədbirlər çərçivəsində ticarət mərkəzləri dezinfeksiya olunub. Məqsəd qarşıdan gələn Novruz bayramı ərəfəsində insanların daha çox üz tutacağı ticarət mərkəzlərində qabaqlayıcı tədbirlər görməkdir.

Həmçinin Xətai küçəsindəki Mərkəzi bazarda kənd təsərrüfatı və ərzaq məhsulları satışı bölmələrinin ətrafı, "Park" Alış-Veriş Mərkəzinin daxili dezinfeksiya edilib. Həmçinin Naxçıvan Avtovağzal Kompleksinin daxilində, avtobus dayanacaqlarında sərnişinlərin daha çox istifadə etdiyi yerlərdə, o cümlədən "Gənclik" Ticarət Mərkəzindəki mağazalarda qabaqlayıcı və profilaktik tədbirlər həyata keçirilib. Dezinfeksiya işləri "Cahan" Ticarət Mərkəzindəki əraziləri də əhatə edib.

Qeyd edək ki, dezinfeksiya tədbirləri muxtar respublikanın rayonlarında da davam etdirilib.

## Dram müsabiqəsi keçirilib

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Təhsil Nazirliyinə birbaşa tabe məktəbdənkənar təhsil müəssisələrinin dram müsabiqəsinin şəhər mərhələsi keçirilib.

Şəhər mərhələsində 4 məktəbdənkənar təhsil müəssisəsi üzrə 29 şagird iştirak edib.

Mərhələdə I yerə Ekoloji Tərbiyə Mərkəzi, II yerə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, III yerə isə Texniki Yaradıcılıq Mərkəzi və Turist Diyarşünaslıq Mərkəzi layiq görülüb.

I yerə layiq görülən Ekoloji Tərbiyə Mərkəzinin dərnək üzvləri Polad Həşimovun əziz xatirəsinə həsr olunmuş səhnə ilə müsabiqənin 8 aprel 2021-ci il tarixdə keçiriləcək muxtar respublika mərhələsində iştirak edəcəklər.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Şərur rayonu, Dəmirçi kənd sakini Hüseynov Ələsgər Oruc oğlunun adına olan JN-313B inventar nömrəli, 10200088 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000,*
*Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 233